# "Xaçaturyan qəddarlığı ilə ad çıxarmışdır"

**Özündən güclü görəndə "yazıq", "aciz", "xəstə", "imkansız" olmaq, gücsüzün yanında özünü "qoçaq" göstərmək namərdin, yaltağın, riyakarın adətidir. Ermənilər illərdir cilddən-cildə girib simalarını dəyişməyə vərdiş ediblər.**

1990-cı illərdə erməni separatçılarının arxasında Qorbaçov, SSRİ-nin güc strukturları, erməni lobbisinin kök saldığı Fransa durmuşdu. Erməni faşistləri də insanlıqlarını itirib silahsız, əliyalın azərbaycanlılara qarşı ən amansız cəza növlərini, vəhşilikləri sınaqdan keçirirdilər. Yalnız insanları illərdir məskən salıb, yaşadıqları yurdlarından didərgin salmırdılar, sadəcə olaraq, öldürmürdülər, erməni cəlladları öldürdükləri insanların nəşinə də əzab verməkdən zövq alır, cəsədləri yandırır, uşaqları qətlə yetirir, ana bətnindən doğulmamış körpələri çıxarıb yabaya keçirir, küçə-küçə gəzdirirdilər. Şəhidlərimizin qulaqlarını, burunlarını kəsir, başlarının dərilərini soyur, gözlərini çıxarırdılar.

O illərdə insanlığa yaraşmayan qanlı cinayətlər törətmiş qatillərdən biri də 29 iyulda Laçın sərhəd-buraxılış məntəqəsində saxlanılaraq Bakıya gətirilmiş Vaqif Çərkəzoviç Xaçaturyandır.

AZƏRBAYCAN 2023.- 5 avqust.- S. 1; 3.


# "Xaçaturyan qəddarlığı ilə ad çıxarmışdır"

*Əvvəli 1-ci səh.*

Qatil Xaçaturyanın həbsindən sonra yenə ermənilər köhnə "yazıq" libaslarını geyinib dünyaya həşir salıblar ki, Vaqif cinayətkar deyil. "Vaqif, heç yuxusunda da silah görməyib", "Xaçaturyan xəstə bir ermənidir". Amma o dəhşətli, faciəli günləri yaşamış insanlarsa başqa fikirdədirlər. Onlardan Xaçaturyanı televizorda görüb sarsıntı keçirəni də var, həmin əzablı günləri yadına salıb "qisas" hayqıranı da. Vaqifin cinayətkar əməlləri barəsində bizimlə söhbət edən, o qanlı faciələri gözləri ilə görmüş Nurməmmədov İbrahim Hüseyn oğlu dedi:

- Xaçaturyanla tanışlığımızın tarixi keçən əsrin 70-ci illərindəndir. 1978-ci ildə mən Kənd Kimya İdarəsində, Vaqif isə avtobazada sürücü işləyirdi. İş yerlərimiz yaxın olduğu kimi, kəndlərimiz də qonşu idi. Hətta biz alış-veriş üçün Vaqifgilin yaşadığı Badar kəndinə gedərdik. Onların kəndində böyük bir mağaza, bufet də var idi. Orada oturub çay içər, söhbətlər edərdik.

Separatçılıq hərəkatı başlayanda Xaçaturyan Vaqif, Qasparyan Venik, onun oğlu Valeri, Aramis, Ernest qardaşları, cinayət axtarış şöbəsinin rəisi Arutunyan Qərib və Xaçaturyanın qardaşı İlya öz vəhşilikləri, qəddarlıqları ilə ad çıxarmışdılar. Bunlara insan demək günahdır. Meşəliyə hücumu da bu adamlar təşkil etmişdilər. Kəndə hücum edən silahlılara onlar rəhbərlik edirdilər. Gözümün qarşısında atamı, anamı öldürdülər, Novruz dayını külfəti ilə birlikdə oda qaladılar. Novruz dayıgilin evində Ağdamdan könüllü meşəlililərə kömək üçün gəlmiş Hidayət adında oğlanı amansızcasına şəhid etdilər. Qənimət kişini, yoldaşı Rübabanı, oğlu Mətləb və İsmayılı öldürdülər. Əvəz dayını, Qönçə xalanı diri-diri yandırdılar. Həmin bu Xaçaturyan Novruz dayının sağ qalan bir oğlu Baratı əsir götürüb onu özləri ilə aparanda Barat özünü qayadan atıb qaça bilmişdi. Hələ də üzündə qəlpə yarasının nişanələri qalmaqdadır. Elnarə adında gənc bir qız var idi. Sinəsindən yaralanmışdı. Elnarə özünü ölülüyə vurmuşdu. Vaqif ayağı ilə onun yarasını tapdalayıb nə reaksiya verəcəyini gözləyirdi. Elnarənin tərpənmədiyini görüb ayağına da bir güllə vurmuşdu...




Budur Ermənistanın müdafiə etdiyi "xəstə", yazıq Vaqifin əsl siması. Kaş qanunlarımız yol verəydi onun cəzasını işgəncə etdiyi insanlar kəsərdi...

Vaqif Xaçaturyanın öz əli ilə 5 nəfər ailə üzvünü amansızlıqla qətlə yetirdiyi Barat Novruz oğlu Novruzov da bizimlə söhbətində gözü ilə gördüyü və başına gələn dəhşətli faciədən danışdı:

- Qatil Vaqif Xaçaturyan bütün meşəlililərin düşməni, bizim ailənin isə əliqanlı qatilidir. Biz ailəliklə Meşəli camaatının müdafiəsini təşkil etməklə məşğul idik. Ermənilər atamın başına pul qoymuşdular. Elə buna görə də kəndimizdə soyqırımı törədəndə də bizim evimizi, ailəmizi nişangaha çevirmişdilər. Faşistlərin kəndimizə basqın edərkən ailəmizin beş üzvünü - atamı, anamı, iki bacımı, polisdə işləyən qardaşımı gözlərimin qarşısındaca xüsusi amansızlıqla Xaçaturyan Vaqif şəhid edib.

O dəhşətli faciəni xatırlayanda həmin günlərin ağrısını-acısını yenidən yaşamalı oluram. Xaçaturyanı televizorda görəndə o hadisələr bir an gözlərimin önündən keçdi.

Hadisə belə oldu. 23 dekabr 1991-ci ildə səhər-səhər ermənilər böyük bir silahlı dəstə ilə kəndimizə müxtəlif istiqamətlərdən hücuma keçdilər. Ermənilərlə səsgücləndirici vasitəsi ilə danışıq aparırdıq ki, qadınlara, qocalara dəyməyin, imkan verin çıxsınlar, biz təslim olaq. Yalandan dəyməyəcəklərinə söz verdilər. Qadınlar bayıra çıxan kimi güllələdilər. Anamı, bacılarımı gözümün qarşısında öldürdülər. Ağdamdan bizi könüllü müdafiəyə gəlmiş Milli Qəhrəman Hidayət Rüstəmovu xüsusi amansızlıqla qətlə yetirdilər... Cəlladlardan biri evə yaxınlaşıb peç turbasının çıxdığı yerdən qumbaraatanla evimizin içini vurdu. Qəlpə üz-gözümü dağıtmışdı. Behpud dayı boğazından yaralanmışdı. İstədim onu evdən bayıra çıxardam. Atam da yaralı idi. Bilirdim ki atamı bayıra çıxarsam, diri-diri başını kəsib götürəcəklər. Ona görə atama dəymədim. Biz bayıra çıxan kimi Behpud dayını güllə ilə vurub öldürdülər. Vaqif mənə yaxınlaşıb əllərimi arxadan məftillə bağlayıb dedi ki, "sən bizə diri lazımsan". Məni diri tutduqlarına sevinirdilər.

Bu cəlladlar kəndi oda qalamışdılar. Küçələr tanıdığım insanların yanmış cəsədləri ilə dolu idi. Məni kəndin kənarına gətirdilər. Orada 70 nəfərdən çox erməni silahlısı var idi. Onlara Vaqif Xaçaturyan, Aramis və Ernest qardaşları komandanlıq edirdilər.

Bilirdim ki, məni qarşıda dəhşətli işgəncə gözləyir. Yaxınlıqda qayalıq, uçurum var idi. Ən düzgün çıxış yolunu özümü üçurumdan atmaqda gördüm. Fikirləşirdim ki, bu işin sonu ölüm olsa da, rahat ölüm olacaqdı. Qarışıqlıqdan istifadə edib qayanın kənarına yxınlaşıb özümü qayadan atdım. Əvvəl özümü ölmüş bildim. Sonra qaranlığı işıq əvəz etdi. Ölmədiyimi biləndə bütün gücümü toplayıb qaçmağa başladım. Ermənilər qaçdığımı görüb arxamca güllə yağdırmağa başladılar. Qarşı tərəfdə bizə Xocalıdan köməyə gələn xüsusi təyinatlı qüvvələr var idi... Özümü onlara çatdırdım.

Şükürlər olsun ki, Vaqiflə qarşılaşacağım günü Allah mənə nəsib etdi. Bundan sonra ölsəm də, gözüm arxada qalmaz.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***